# *Braziliyalı senator:* "İnanıram ki, işğaldan azad olunmuş ərazilər tezliklə inkişaf etmiş bölgəyə çevriləcək"



Noyabrın 2-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Braziliya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri senator Antonio Anastasia ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri bildirib ki, Azərbaycanla Braziliya arasında əlaqələrin inkişafında müsbət dinamika mövcuddur. Azərbaycan BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində Braziliya ilə əməkdaşlığın davam etdirilməsində maraqlıdır. Diplomatik əlaqələrimizin yaradıldığı 30 ilə yaxın müddət ərzində iki ölkə arasında münasibətlərin hüquqi bazası formalaşdırılıb.

Ölkələrimizin parlamentləri arasındakı əlaqələrdən danışan Sahibə Qafarova bildirib ki, həm Milli Məclisdə, həm də Braziliya Milli Konqresinin Senatında və Deputatlar Palatasında parlamentlərarası əlaqələr üzrə işçi qrupların qarşılıqlı fəaliyyət göstərməsi təqdirəlayiqdir. Deputatlarımız beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edirlər.

Parlamentin sədri braziliyalı senatora 44 günlük Vətən müharibəsi haqqında da məlumat verib. Bildirib ki, ötən il sentyabrın 27-də Ermənistan tərəfindən törədilən növbəti təxribatdan sonra Azərbaycan əks-hücum əməliyyatına başlayıb və beynəlxalq sənədlərdə də əksini tapmış özünümüdafiə hüququndan istifadə edərək torpaqlarını işğaldan azad edib. Noyabrın 10-da Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli Bəyanatla münaqişəyə son qoyulub. Azərbaycan bununla da torpaqlarımızın Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoyub və öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının müvafiq 4 qətnaməsini öz gücünə yerinə yetirib.

Söhbət zamanı senator Antonio Anastasianın işğaldan azad olunmuş Ağdam şəhərinə səfər etdiyini və orada baş vermiş dağıntıları öz gözləri ilə gördüyünü xatırladan S.Qafarova vurğulayıb ki, işğaldan sonra Ağdamın və digər şəhər və rayonlarımızın yalnız adları qalıb. Ermənistan 30 il işğal altında saxladığı bütün yaşayış yerlərini, şəhər və kəndlərimizi, infrastrukturu, tarix və mədəniyyət abidələrini tamamilə dağıdıb, məhv edib. Hazırda isə minalanmış ərazilərin xəritələrini verməkdən imtina edən Ermənistan bununla da təxribatlarını davam etdirir.

Milli Məclisin Sədri həmçinin qeyd edib ki, Azərbaycan çoxmillətli və tolerant ölkədir. Azərbaycan regionda daimi sülh və əmin-amanlığın təmin olunmasına çalışır. O, hazırda ölkəmizin işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başladığını bildirib və görülən işlər barədə də qonağa məlumat verib.

Görüşdə Braziliya Milli Konqresi Senatının Azərbaycanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, senator Antonio Anastasia ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin perspektivləri haqqında fikirlərini bölüşüb. Qonaq yüksəksəviyyəli səfərlərin münasibətlərin inkişafındakı xüsusi rolunu qeyd edib.

Söhbət zamanı Azərbaycanla Braziliya arasında əlaqələrin inkişafında parlamentlərin rolu, bu sahədə dostluq qruplarının əhəmiyyəti vurğulanıb. Parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsi üçün qarşılıqlı səfərlərin, təcrübə mübadiləsinin verə biləcəyi töhfələrdən danışılıb.

Senator Antonio Anastasia Azərbaycana səfəri çərçivəsində Gəncə və Ağdama səfər etdiyini və reallıqların şəxsən şahidi olduğunu diqqətə çatdırıb. Qonaq işğaldan azad edilmiş ərazilərin tezliklə inkişaf etmiş bölgəyə çevriləcəyinə inamını bildirib.

Görüşdə digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2021.- 3 noyabr.- S. 2.